| | | | |
|---|---|---|---|
| **Yanvar** | **Fevral** | **Mart** | **Aprel** |
| **May** | **İyun** | **İyul** | **Avqust** |
| **Sentyabr** | **Oktyabr** | **Noyabr** | **Dekabr** |

# YANVAR

**10 yanvar** Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın etimadnaməsini qəbul etmişdir.

Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonqun etimadnaməsini qəbul etmişdir.

**11 yanvar** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbrik məktubu göndərmişdir.

İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa anası - Aura Hersoqun vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**13 yanvar** Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**14 yanvar** **Ukrayna Prezidenti Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfərdə olmuşdur.**

Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək görüşü olmuşdur.

Kiyevdə Azərbaycan Respublikasının Prezidentinin və Ukrayna Prezidenti Volodimir Zelenskinin geniş tərkibdə görüşü keçirilmişdir.

Kiyevdə geniş tərkibdə görüş başa çatdıqdan sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.

Kiyevdə sənədlərin imzalanması mərasimindən sonra dövlət başçılarımətbuata bəyanatlarla çıxış etmişdirlər.

Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenskinin adından Azərbaycan Respublikasının Prezidentinin şərəfinə lanç verilibmişdir.

**15 yanvar** Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**17 yanvar** Azərbaycan Respublikasının Prezidenti ilə Monteneqro parlamentinin sədri Aleksa Beçiç arasında videoformatda görüş olmuşdur.

**18 yanvar** Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmiş, söhbət zamanı Azərbaycan-Rusiya əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olunmuş, strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilmişdir.

**20 yanvar** Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.

**24 yanvar** Çin Xalq Respublikasının Sədri Si Cinpinə Yeni ilin gəlişini simvolizə edən Bahar bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

**25 yanvar** İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul etmişdir.

| | |
|---|---|
| **25 yanvar** | Ukrayna Prezidenti Volodimir Zelenskiyə zəng edərək ad günü münasibətilə təbrik etmişdir. |
| **28 yanvar** | Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul etmişdir. |
| | Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə "Nur Otan" Partiyasının sədri seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir. |
| **31 yanvar** | Sercio Mattarellaya İtaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik məktubu göndərmişdir. |

# FEVRAL

**3 fevral** Ukraynanın Prezidenti Volodimir Zelenskiyə Azərbaycan Respublikası ilə Ukrayna arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbrik məktubu göndərmişdir.

**4 fevral** Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bakıda, "Gülüstan" sarayında keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında çıxış etmişdir.

Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüş keçirilmişdir.

**5 fevral** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək koronavirus xəstəliyinə yoluxması ilə əlaqədar ona və həyat yoldaşı Əminə xanıma öz adından və Mehriban xanımın adından cansağlığı arzulayıb və şəfa diləklərini yetirmişdir.

**8 fevral** İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisiyə ölkənin milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**10 fevral** Ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul etmişdir.

**12 fevral** Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçə ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

**15 fevral** Frank-Valter Ştaynmayerə Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**21 fevral** Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consona Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbrik məktubu göndərmişdir.

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

**21-23 fevral** **Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasında rəsmi səfərdə olmuşdur.**

**22 fevral** Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət etmişdir.

Moskvada Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olmuşdur.

| | |
|---|---|
| **22 fevral** | Moskvada dövlət başçılarının iştirakı ilə "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə imzalanmışdır. |
| | Moskvada Azərbaycan Respublikasının Prezidenti və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxış etmişlər. |
| | Moskvada Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanış olmuşdur. |
| **23 fevral** | Moskvada TASS agentliyinin mənzil-qərargahında "Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında" adlı ekspozisiya ilə tanış olmuşdur. |
| | Moskvada TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü olmuşdur. |
| | Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefon danışığı olmuş, söhbət zamanı ikitərəfli gündəliyə və regional məsələlərə dair fikir mübadiləsi aparılmışdır. |
| **24 fevral** | Moldova parlamentinin sədri İqor Qrosu ilə videoformatda görüşü olmuşdur. |
| | Dünya İqtisadi Forumunun Prezidenti Borge Brendenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| | Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellenə Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar təbrik məktubu göndərmişdir. |
| | Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbrik məktubu göndərmişdir. |
| **26 fevral** | Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək ad günü münasibətilə təbrik etmişdir. |
| **27 fevral** | Azərbaycan Respublikasının Prezidenti ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ilə telefon danışığı olmuş, söhbət zamanı Ukraynada hadisələrin eskalasiyası ilə əlaqədar vəziyyət, həmçinin Rusiya-Azərbaycan münasibətləri ilə bağlı məsələlər müzakirə edilmişdir. |

# MART

**2 mart** Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu və strateji layihələr üzrə xüsusi nümayəndə Ana Birçalı videoformatda qəbul etmişdir.

**3 mart** Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməlini qəbul etmişdir.

**5 mart** Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul etmişdir.

Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul etmişdir.

**7 mart** Fransa Respublikasının Prezidenti Zati-aliləri cənab Emmanuel Makrona Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

**9 mart** Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul etmişdir.

**10 mart** **Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyədə işgüzar səfərdə olmuşdur.**

Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşmüşdür.

Roma Papası Fransisk Həzrətlərinə ölkənin milli bayramı – Tacqoyma Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**11 mart** İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Gürcüstanın ədliyyə naziri Rati Breqadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisiyə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbrik məktubu göndərmişdir.

**14 mart** Yun Sok Yola Koreya Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

Xanım Katalin Novaka Macarıstanın Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**15 mart** Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan Respublikasının Prezidenti ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında olan telefon danışığı zamanı son illər ərzində Azərbaycan ilə Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasından məmnunluqlarını ifadə etmişdilər.

**15 mart** Sərdar Berdiməhəmmədova Türkmənistanın Prezidenti vəzifəsinə keçirilmiş seçkilərdə qazandığınız qələbə münasibətilə təbrik məktubu göndərmişdir.

**17 mart** Tunis Respublikasının Prezidenti Kays Sayidə ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

**18 mart** Pakistan İslam Respublikasının Prezidenti Arif Alviyə ölkənin milli bayramı – Pakistan günü münasibətilə təbrik məktubu göndərmişdir.

Pakistan İslam Respublikasının Baş naziri İmran Xana ölkənin milli bayramı – Pakistan günü münasibətilə təbrik məktubu göndərmişdir.

Yunanıstan Respublikasının Prezidenti xanım Katerina Sakellaropuluya ölkənin milli bayramı – Pakistan günü münasibətilə təbrik məktubu göndərmişdir.

**21 mart** Çin Xalq Respublikasının Sədri Si Cinpinə Çinin cənubunda "China Eastern Airlines" şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**22 mart** Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə Novruz bayramı münasibətilə təbrik məktubunu və xoş sözlərinə görə təşəkkürünü bildirmişdir.

**26 mart** Şarl Mişelə Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**27 mart** Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisiyə Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbrik məktubu göndərmişdir.

**29 mart** Çin Xalq Respublikasının Sədri Si Cinpinə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbrik məktubu göndərmişdir.

**30 mart** Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul etmişdir.

**31 mart** Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng etmiş, telefon danışığı əsnasında Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyət müzakirə olunmuşdu.

# APREL

**1 aprel** Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə əlamətdar yubiley – Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbrik məktubu göndərmişdir.

**2 aprel** İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**4 aprel** Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul etmişdir.

İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

**5 aprel** İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul etmişdir.

Aleksandar Vuçiçə Serbiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

Macarıstanın Baş naziri Viktor Orbana ölkədə keçirilmiş parlament seçkilərində başçılıq etdiyi koalisiyanın yenidən qələbə qazanması münasibətilə təbrik məktubu göndərmişdir.

**6 aprel** **Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərdə olmuşdur.**

Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olmuşdur.

Brüsseldə Azərbaycan Respublikasının Prezidentinin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olumuşdur.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng etmiş, telefon danışığı əsnasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında Brüsseldə keçirilmiş üçtərəfli görüş haqda söhbət aparılmışdı.

**9 aprel** Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng etmiş, söhbət əsnasında Ermənistan və Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşdırılması məsələlərinə və aprelin 6-da Brüsseldə keçirilmiş görüşə dair fikir mübadiləsi aparılmışdır.

**14 aprel** Ölkəmizdə rəsmi səfərdə olan Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur.

Şahbaz Şərifə Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**15 aprel** Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvilini qəbul etmişdir.

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caberi qəbul etmişdir.

**19 aprel** Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyonun etimadnaməsini qəbul etmişdir.

Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmidin etimadnaməsini qəbul etmişdir.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşinin etimadnaməsini qəbul etmişdir.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasa Azərbaycan Respublikası ilə Fələstin Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

**20 aprel** ***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Qırğız Respublikasının Prezidenti Sadır Japarovun rəsmi qarşılanma mərasimi olmuşdur.***

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşü olmuşdur.

Azərbaycan və Qırğızıstan prezidentlərinin geniş tərkibdə görüşü keçirilmişdir.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan və Qırğızıstan prezidentləri mətbuata bəyanatlarla çıxış etmişdilər.

Azərbaycan Respublikasının Prezidentinın adından Qırğız Respublikasının Prezidenti Sadır Japarov və xanımı Ayqul Japarovanın şərəfinə rəsmi ziyafət verilmişdir.

**25 aprel** İsrailin maliyyə naziri Aviqdor Libermanı qəbul etmişdir.

Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul etmişdir.

Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Emmanuel Makrona Fransa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**26 fevral** Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul etmişdir.

| | |
|---|---|
| **26 fevral** | Latviya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriksi qəbul etmişdir. |
| **27 aprel** | Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvilini qəbul etmişdir. |
| | Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| **28 aprel** | NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanı qəbul etmişdir. |
| **29 aprel** | ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans konfransda iştirak etmişdir. |
| | Polşa Respublikasının Prezidenti Andjey Dudaya ölkənin milli bayramı – Konstitusiya günü münasibətilə təbrik məktubu göndərmişdir. |
| | İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir. |
| **30 aprel** | Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvilini qəbul etmişdir. |

# M A Y

**2 may** Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfiri Bris Rokföyü qəbul etmişdir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında olan telefon danışığı zamanı prezidentlər Ramazan bayramı münasibətilə bir-birini təbrik etmiş, qardaş Azərbaycan və Türkiyə xalqlarına ən xoş arzularını çatdırmışlar.

**4 may** Macarıstanın Baş naziri Viktor Orbana Azərbaycan Respublikası ilə Macarıstan arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbrik məktubu göndərmişdir.

**6 may** BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbul etmişdir.

**9 may** Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**13 may** Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktuma görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

Əbu-Dabi Əmirliyinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Al Nəhyana Qardaşınız – böyük şəxsiyyət, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**14 may** **Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə qardaş ölkəyə işgüzar səfərdə olmuşdur.**

Rize-Artvin Hava Limanının açılış mərasimində cıxış etmişdir.

**16 may** Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdəki səfirliyində olmuş, görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**17 may** Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edərək ad günü münasibətilə təbrik etmişdir.

İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul etmişdir.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyana Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**18 may** ***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Litva Respublikasının Prezidenti Gitanas Nausedanın rəsmi qarşılanma mərasimi olmuşdur.***

Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olmuşdur.

**18 may** Azərbaycan və Litva prezidentlərinin geniş tərkibdə keşirilən görüşdə çıxış etmişdir.

Azərbaycan və Litva prezidentləri mətbuata bəyanatlarla çıxış etmişlər.

Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-Litva biznes forumunda çıxış etmişdir.

Azərbaycan Respublikasının Prezidenti və xanımı Mehriban Əliyevanın adından Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausedienenin şərəfinə rəsmi ziyafət verilmişdir.

**19 may** Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**20 may** ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul etmişdir.

Roma Papası Fransisk Həzrətlərinə Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

**22 may** **Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərdə olmuşdur.**

Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olmuşdur.

Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.

**23 may** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək Brüsseldə Azərbaycan Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri arasında keçirilən görüş barədə məlumat vermişdir.

Gürcüstanın Prezidenti xanım Salome Zurabişviliyə ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**24 may** Özbəkistan Respublikasının Baş nazirinin müavini, turizm və mədəni irs naziri Aziz Abduhakimovu qəbul etmişdir.

Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevi qəbul etmişdir.

**25 may** Estoniya Respublikası parlamentinin sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**26 may** Xorvatiya Respublikasının Prezidenti Zoran Milanoviçə ölkənin milli bayramı – Dövlətçilik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**28 may** ***Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərə gəlmişdir.***

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışında Azərbaycan Respublikasının Prezidenti və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etmişdilər.

**28 may** Azərbaycan Respublikasının Prezidenti və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirak etmişdilər.

Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında çıxış etmişdir.

Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**30 may** İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisiyə Abadan şəhərində onmərtəbəli binanın çökməsi nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**31 may** ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul etmişdir.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng etmiş, telefon söhbəti zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli razılaşmalarının regionda dinc həyatın nizamlanması və sabitliyin möhkəmlənməsi, iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpası ilə bağlı konkret məsələlərin həlli xüsusi qeyd olunmaqla icrasının gedişi nəzərdən keçirilmişdir.

# İ Y U N

**1 iyun** Serbiya Baş nazirin müavini, mədən və energetika naziri Zorana Mixayloviçi qəbul etmişdir.

Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində çıxış etmişdir.

"Bakı Enerji Həftəsi"nin iştirakçılarına təbrik məktubu göndərmişdir.

**2 iyun** Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası II Elizabetə ölkənin milli bayramı – Təvəllüd günü və taxtda olmağının 70 illiyi münasibətilə təbrik məktubu göndərmişdir.

İtaliya Respublikasının Prezidenti Sercio Mattarellaya ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

**8 iyun** Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə ölkənin milli bayramı – Rusiya Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**9 iyun** İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisiyə Məşhəd-Yəzd istiqamətində hərəkət edən sərnişin qatarının qəzaya uğraması nəticəsində insanların həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**10 iyun** Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədova Azərbaycan Respublikası ilə Türkmənistan arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbrik məktubu göndərmişdir.

**14 iyun** "Azərbaycan – Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda Şuşada keçirilən beynəlxalq konfransın iştirakçılarını təbrik məktubu göndərmişdir.

**15 iyun** ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridi qəbul etmişdir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.

**16 iyun** Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşü olmuşdur.

Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşü olmuşdur.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç ilə görüşü olmuşdur.

Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul etmişdir.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunda nitq söyləmişdir.

**17 iyun** Səudiyyə Ərəbistanının Kral Faysalın İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Türki Al Faysal Al Saudu qəbul etmişdir.

Ölkəmizdə işgüzar səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə videokonfrans formatında görüşü olmuşdur.

BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul etmişdir.

Ərəb Dövlətləri Liqasının Baş katibi, Misirin sabiq xarici işlər naziri Əhməd Əbul Qeyti qəbul etmişdir.

İsrailin sabiq Baş naziri Ehud Barakı qəbul etmişdir.

Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul etmişdir.

**21-22 iyun** **Özbəkistan Respublikasında dövlət səfərində olmuşdur.**

Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olmuşdur.

Daşkənddə Müstəqillik abidəsini ziyarət etmişdir.

Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə məhdud tərkibdə görüşü olmuşdur.

Daşkənddə Heydər Əliyev Meydanının açılış mərasimində çıxış etmişdir.

Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin geniş tərkibdə keçirilən görüşdə çıxış etmişdir.

Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olmuşdur.

Daşkənddə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan və Özbəkistan prezidentləri mətbuata bəyanatlarla çıxış etmişdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Kuksaroy" dövlət iqamətgahında Fəxri qonaqlar xiyabanında ağac əkiblər.

Daşkənddə "TEXNOPARK" MMC-nin fəaliyyəti ilə tanış olmuşdur.

Daşkənddə "Kuksaroy" dövlət iqamətgahında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin adından Azərbaycan Respublikasının Prezidentinin şərəfinə rəsmi ziyafət verilmişdir.

**22 iyun** Daşkənddən Ürgənc şəhərinə yola düşmüşdür.

Xivə şəhərində "Nurullaboy" saray kompleksi ilə tanış olmuşdur.

Xivə şəhərində İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi ilə tanış olmuşdur.

**22 iyun** Xivə şəhərində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən Azərbaycan Respublikasının Prezidentinin şərəfinə qəbul təşkil edilimişdir.

**23 iyun** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın həmsədri, Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Adrian-İonuts Kesnoyunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı qəbul etmişdir.

Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.

**24 iyun** BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul etmişdir.

**27 iyun** İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Tahanı qəbul etmişdir.

Ümumdünya Şəhər Forumunun “Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək” mövzusunda Polşanın Katovitse şəhərində keçirilən 11-ci sessiyasında videoformatda çıxış etmişdir.

**28 iyun** Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə zəng edərək ad günü münasibətilə təbrik etmişdir.

**29 iyun** **Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistanda səfərdə olmuşdur.**

Aşqabadda Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur.

Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olmuşdur.

Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olmuşdur.

Aşqabadda dövlət başçılarının məhdud tərkibdə görüşü olmuşdur.

Aşqabadda Zirvə Toplantısı çərçivəsində dövlət başçılarının geniş tərkibdə görüş olmuşdur.

Aşqabadda keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxış etmişdir.

Aşqabadda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.

Aşqabadda Xəzəryanı dövlətlərin dövlət başçılarının şərəfinə verilmiş rəsmi qəbulda iştirak etmişdir.

**30 iyun** Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopu qəbul etmişdir.

Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Sancranini qəbul etmişdir.

Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul etmişdir.

Heydər Əliyev Mərkəzində keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransında çıxış etmişdir.

# İ Y U L

| | |
|---|---|
| **4 iyul** | Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir. |
| **12 iyul** | Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçekin etimadnaməsini qəbul etmişdir. |
| **13 iyul** | Fransa Respublikasının Prezidenti Emmanuel Makrona ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir. |
| | Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Türkiyədə 15 İyul dövlət çevrilişi cəhdinin altıncı ildönümü qeyd olunması ilə əlaqədar məktubu göndərmişdir. |
| **15 iyul** | Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir. |
| | İran İslam Respublikasının Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxanini qəbul etmişdir. |
| | 15 İyul - Demokratiya və Milli Birlik Günü ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng etmişdir. |
| **18 iyul** | Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" Azərbaycan Respublikasının Prezidenti və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalamışlar. |
| | Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə geniş tərkibdə görüşü keçirilmişdir. |
| | Azərbaycan Respublikasının Prezidenti və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen mətbuata bəyanatlarla çıxış etmişdilər. |
| **19 iyul** | Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| | Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizeri qəbul etmişdir. |
| | Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Derya Yanıkı qəbul etmişdir. |
| **20 iyul** | Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisiyə ölkənin milli bayramı – İnqilab Günü münasibətilə təbrik məktubu göndərmişdir. |
| **21 iyul** | Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə təkbətək görüşü olmuşdur. |
| | Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə geniş tərkibdə görüşü olmuşdur. |
| | Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə birgə işçi şam yeməyi olmuşdur. |
| **24 iyul** | Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edərək ad günü münasibətilə təbrik etmişdir. |

**27 iyul** Mərakeşin Kralı VI Məhəmmədə ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

**30 iyul** Gürcüstanın Prezidenti xanım Salome Zurabişviliyə Qudauridə sərhəd polisinə məxsus helikopterin qəzaya uğraması nəticəsində heyət üzvlərinin və xilasedicilərin həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

# AVQUST

**5 avqust** Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Şuller-Qötzburqun etimadnaməsini qəbul etmişdir.

Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Layçakın etimadnaməsini qəbul edib.

**6 avqust** Panama Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariela del Karmen Sagel Rosasın etimadnaməsini qəbul etmişdir.

Ruanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fidelis Ntampaka Mironkonun etimadnaməsini qəbul etmişdir.

**9-10 avqust** **Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyədə işgüzar səfərdə olmuşdur.**

Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşmüşdür.

Konyada Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyehi qəbul etmişdir.

Konyada Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarı qəbul etmişdir.

Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə verilmiş şam yeməyində iştirak etmişdir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olumuşdur.

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimində iştirak etmişdir.

**10 avqust** Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Ramtan Lamamranı qəbul etmişdir.

**15 avqust** Qırğız Respublikasının Nazirlər Kabinetinin sədr müavini Bakıt Torobayevi qəbul etmişdir.

**16 avqust** Türkmənistanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasovun etimadnaməsini qəbul etmişdir.

İsveç Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Tobias Lorentzsonun etimadnaməsini qəbul etmişdir.

Argentina Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Marianxeles Belluşinin etimadnaməsini qəbul etmişdir.

Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemannın etimadnaməsini qəbul etmişdir.

**18 avqust** Monqolustanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Qombosuren Munxbayarın etimadnaməsini qəbul etmişdir.

**18 avqust** Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Dipuo Berta Letsatsi-Dubanın etimadnaməsini qəbul etmişdir.

Çad Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adum Danqay Nokur Qetin etimadnaməsini qəbul etmişdir.

Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Zoe Daun Kolson-Sinklerin etimadnaməsini qəbul etmişdir.

Efiopiya Federativ Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adem Muhammed Mahmudun etimadnaməsini qəbul etmişdir.

**21 avqust** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Qaziantep-Nizip yolunda baş vermiş nəqliyyat qəzası nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**22 avqust** Ukraynanın Prezidenti Volodimir Zelenskiyə ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**24 avqust** ***Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin rəsmi qarşılanma mərasimi olmuşdur.***

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə rəsmi ziyafət verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən Qazaxıstanın "Altın kıran" – "Qızıl qartal" ali ordeni təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olmuşlar.

Azərbaycan və Qazaxıstan prezidentlərinin geniş tərkibdə görüşü keçirilmişdir.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədləri imzalanmışdır.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan və Qazaxıstan prezidentləri mətbuata bəyanatlarla çıxış etmişdilər.

Azərbaycan və Qazaxıstan prezidentləri Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə Dənizkənarı Milli Parkda qurulmuş "Qazax yurtası" ilə tanış olumuşlar.

Moldova Respublikasının Prezidenti xanım Maya Sanduya ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**25 avqust** Koreya Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Busan şəhərinin "Ekspo 2030" Ümumdünya Sərgisinə ev sahibliyinə namizədliyini dəstək üzrə Xüsusi Komitənin sədri So Byoq Sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

| | |
|---|---|
| **25 avqust** | Tailand Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Apirat Suqondhabhiromun etimadnaməsini qəbul etmişdir. |
| | Bosniya və Herseqovinanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adis Alagiçin etimadnaməsini qəbul etmişdir. |
| | Dominikan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Elvis Antonio Alam Loranın etimadnaməsini qəbul etmişdir. |
| | Mərakeşin Kralı VI Məhəmmədə Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbrik məktubu göndərmişdir. |
